

# İSLAHATLARA UYĞUN ŞƏKİLDƏ

**Müsahibimiz Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Mahir Əfəndidir. Əfəndi Mahir Qalib oğlu 1974-cü il aprelin 17-də Qax şəhərində anadan olub.**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muzey işi, tarix və mədəniyyət abidələrinin mühafizəsi fakültəsinin məzunudur. Əmək fəaliyyətinə 1998-ci ildə başlamış, Əmircan və Əmbərçay kənd məktəblərində müəllim, rayon tarix-diyarşünaslıq muzeyində elmi işçi vəzifələrində çalışmışdır. 2007-ci ildən muzeyin direktorudur.**

**Söhbət zamanı Mahir müəllim rəhbərlik etdiyi muzeyin keçdiyi inkişaf yolundan, kollektivin həyata keçirdiyi tədbirlərdən danışdı:**

- Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyi Azərbaycan KP MK-nın iyul 1979-cu il tarixli plenumunun qərarına uyğun olaraq yaradılmış tarix-ölkəşünaslıq muzeyinin bazasında Azərbaycan SSR Nazirlər Sovetinin 13 avqust 1981-ci il tarixli 445 №-li Sərəncamına əsasən XIX əsrə aid, şəhərin mərkəzində yerləşən Allahverdi kilsə binasında 500-dək eksponatla fəaliyyətə başlamışdır.

1991- ci ilin iyun ayından muzey onun üçün qismən uyğunlaşdırılmış yeni tipli binaya köçürülmüşdür. Bu günə qədər muzey özünün zəngin fondunu yaratmışdır. Muzeydə Qax rayonunun 500 illik tarixindən soraq verən 10928 ədəd tarixi və elmi əhəmiyyətə malik əşya mühafizə, tədqiq və təbliğ olunur. Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyi rayonun daşınar tarixi abidələri, elmi təbiət kolleksiyalarını və bədii kolleksiyaları, müəyyən coğrafi və inzibati əraziyə aid xalq sənəti nümunələrini toplayan, mühafizə edən elmi-tədqiqat və mədəni-maarif müəssisəsidir.

Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyi profilinə görə kompleks profilli muzeylər növünə aiddir. Muzey ekspozisiyası 8 zaldan ibarət 9 salon üzrə yerləşdirilmişdir. Muzey hər il olduğu kimi, bu il də fəaliyyətini mövcud illik iş planının tələblərinə uyğun olaraq təşkil edir.

Muzey işçilərinin birgə səyi nəticəsində bu il ərzində xalqımızın əsrlərin sərt sınağına sinə gərmiş gözəl adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin təbliği və mühafizəsi istiqamətində maraqlı, yadda qalan tədbirlər həyata keçirilmişdir. Azərbaycanın, eləcə də rayonumuzun tarixini, maddi-mənəvi mədəniyyət, incəsənət nümunələrini təbliğ etmək məqsədi ilə muzey vasitəsilə 9 səyyar və 22 stasionar sərgilər təşkil olunmuş, 38 mühazirə oxunmuşdur.

Fond əşyalarının tam mühafizəsini təmin etmək məqsədilə eksponatlar haqqında məlumatlar elektron daşıyıcılara daxil edilmişdir.

Əsas fonda daxil olan muzey əşyalarının elmi inventarizasiyasının aparılması məqsədilə muzey əşyalarının kolleksiyalara və məxəz tiplərinə əsasən 7 ədəd elmi inventar kitabları təşkil olunmuş, ümumi sayı 720 ədəd olan eksponat elmi inventarizasiyadan keçmişdir. Elmi təsvir vərəqlərinin tərtibi işi davam etdirilir. Tarix-diyarşünaslıq muzeyləri haqqında əsasnaməyə uyğun olaraq muzeyimizdə məşvərətçi qurum kimi Muzey Şurası fəaliyyət göstərir.

Muzey şurasının səmərəli fəaliyyəti üçün muzeyin profilinə uyğun istək və arzularını reallığa uyğunlaşdırmaq şərti ilə tərtib olunan Elmi Şuranın əsasnaməsi Mədəniyyət və Turizm Nazirliyinin müvafiq orqanlarının müsbət rəyi alınaraq təsdiqlənmişdir. Mu-

zey əşyalarının qorunub saxlanma vəziyyətini araşdırmaq məqsədilə baxış keçirilmiş və bərpasına daha çox ehtiyac olan eksponatların bərpa edilməsi məqsədilə seçilərək, müvafiq siyahı tərtib edilmişdir.

Həmin siyahıdan muzeyimizin əsas fonduna məxsus 40-dək təsadüfi-arxeoloji materiallar Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzi tərəfindən təlimata uyğun konservasiya olunmuşdur. Rayonumuzda mövcud olan memarlıq və arxeoloji abidələrin yerində öyrənilməsi, muzey fondunun komplektləşdirilməsi məqsədi ilə Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, elmlər doktoru V. Kərimovun rəhbərliyi ilə Süskənd, Ləkil, Zərnə, Güllük, Zəyəm və Lələli kəndlərinə ekspedisiyalar təşkil olunmuş, elmi ictimaiyyətə naməlum onlarla məbədlərin, abidələrin öyrənilməsi, tədqiqi, yeni tarixi faktların üzə çıxarılması işi davam etdirilmişdir.

Lələli kəndi yaxınlığında yerləşən tarixi e.ə. I minilliyə aid Torpaqqala yaşayış məskənində və Nekropol ərazisində aparılan arxeoloji qazıntı zamanı əldə olunan 100-dək muzey əhəmiyyətli əşya muzeyimizin fonduna götürülmüşdür. Arxeoloji tapıntılardan tunc qoç və maral totemlərinin əsasında çıxarılan elmi nəticəyə görə e.ə. I minillikdə Lələli kəndi ərazisində türk mənşəli qəbilələr yaşamışlar.

Müqəddəs Günəş rəmzi sayılan maral bütün türklərin rəmzi mənası eyni olan ümumi totemi idi. Maral yüksəliş rəmzi və böyük güc nişanəsi idi. Onun dövri olaraq təzələnən ağaca oxşar buynuzları cavanlaşdırma, daim təzələnmə və zamanın gedişini yeniləşdirmə rəmzi sayılırdı. Maral həm də işıq, xeyirxahlıq, düzgünlük rəmzi idi. Qədim türklər tuncdan tökülmüş maral totemini onun yuxarıda sadalanan xüsusiyyətlərini özlərində cəmləşdirmək üçün boyunlarından asaraq gəzdirirdilər.

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı V. Kərimovla birgə 2008-ci ildə Ləkit məbədində aparılan arxeoloji qazıntının yekunu olaraq hazırlanan "Qafqaz Albaniyasının Ləkit məbədi" adlı kitab üzərində son tamamlanma işləri aparılmaqdadır.

Qax rayonu Azərbaycan Respublikasında inzibati rayon kimi 1930-cu ildə yaradılmışdır. Böyük Qafqazın Cənub yamacında yerləşir. Şimal-şərqdən Rusiya Federasiyası, cənub-qərbdən Gürcüstan ilə həmsərhəddir. Sahəsi 1493,8 kv.km, əhalisi 53,8 min nəfərdir (01.01.2009-cu ilin məlumatı). Mərkəzi Qax şəhəridir . Qax əsasən tütünçülük, heyvandarlıq, meyvəçilik, taxılçılıq və baramaçılıq rayonudur.

Çayları (Kürmük, Qaşqaçay, Əyriçay və s.) rayonun Gürcüstanla sərhəddi boyu axan Qanıx hövzəsinə aiddir, suvarmada istifadə olunur.

Rayonun torpaq örtüyü çox müxtəlifdir. Burada çimli dağ-çəmən, qonur dağ-meşə, allüvial çəmənmeşə, allüvial-çəmən, şabalıdı və karbonatlı yuxa qara torpaqlar yayılmışdır.

Qaxın florasında 76 fəsiləyə, 290 cinsə daxil olan 500 növ, relikt, 7 nəsli kəsilməkdə olan, arealı azalan 18 nadir növ, ümumiyyətlə isə Azərbaycanın Qırmızı kitabına daxil edilən və qorunması tövsiyə olunan 30 bitki növü bitir. Qarabağla bərabər Xarı bülbülün vətəni həm də Qax rayonu sayıla bilər. Çünki Qaxın təbiətində də bu nadir bitkiyə tez-tez rast gəlinir.

Qax təbiətində həmçinin 150-dək dərman bitkisi yetişir ki, bunlardan da xalq təbabətində, fitoterapiyada geniş istifadə olunur. Heyvanat aləmindən ən çox yayılanları dağ keçisi, köpkər, ayı, vaşaq, meşə pişiyi, çöl pişiyi, çöl donuzu, süleysin, canavar, çaqqal, tülkü və dovşandır. Quşlardan ular, tetra quşu, qırqovul, turac, kəklik, qartal və s. vardır. Bütövlükdə Qax təbiətində 35 növ məməli heyvan və 50-dək quş növü yaşayır.

Qax- bu ad haqqında bir neçə fikirlər söylənmişdir. Lakin bu günə qədər Qax adının mənşəyinin nə ilə bağlı olduğu dəqiq müəyyənləşdirilməmişdir. Söylənən fikirlərin ən başlıcası odur ki, "qaq" tayfası bu ərazinin ən qədim tayfalarından biri olmuşdur. Sonralar bu söz "qax" kimi işlənərək bu günümüzə qədər gəlib çatmışdır. Başqa bir fikrə görə, Qax İran dillərində "qala" mənasını bildirir.

Tədqiqatçı alim Nəbi Nəbiyev yazırdı ki, Qax rayonu çoxlu bağlarla məşhur olduğundan, burada meyvə qurutmaq keçmişdən bəri yerli əhalinin məşğuliyyəti olduğundan bu ad meydana çıxmışdır.

Azərbaycan EA Milli Münasibətlər İnstitutunun elmi işçisi, filologiya elmləri namizədi Rəşid Təhməz oğlu isə Qax sözünün iki kökdən ibarət olduğunu qeyd edir. Yəni "qa" - yaşayış yeri, "ax" - çay yeri, çay məskəni kimi ifadə etməklə ilkin adının "Qaax" olması mümkündür.

Mərhum akademik Z.Bünyadov 1980-ci il oktyabrın 17-də "Ədəbiyyat və incəsənət" qəzetində Nizaminin Qax rayonundakı Qum kəndindən olduğunu qətiyyətlə söyləyir. O, 1983-cü il aprelin 12-də Qax rayonuna göndərdiyi məktubunda (məktub hal-hazırda Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır) yazmışdır: "Dahi Nizaminin doğma yurdu haqda söhbətlər çoxdan gedir. Şairin guya İranın Qum şəhərində anadan olması Nizaminin öz sözləri əsasında rədd olunur. İranın Qum şəhəri düzənlikdə yerləşir. (Nizami isə deyir: "Mən dağlıq mahalı olan Qum şəhərindənəm"). Sizin Qum orta əsrlərdə şəhərcik olub və Qum dağ mahalındadır. Ona görə də mən və məndən qabaq başqa alimlər təsdiq edirlər ki, Nizaminin vətəni sizin Qumdur...

Qax rayonu ərazisindəki Qum kəndi, şairin qeyd etdiyi kimi, dağlar qoynunda yerləşir. Bu kəndin qədim yaşayış məskəni olmasını orada yerləşən qədim məbədlər bir daha sübut edir. Əvvəllər bu kənd böyüklüyünə görə qonşu yaşayış məskənlərindən fərqləndiyinə görə şəhər əhəmiyyətli olmuşdur. Kəndin Gəncəyə nə qədər yaxın olduğunu sübut etmək üçün isə bircə faktı göstərmək kifayətdir. Belə ki, buludsuz açıq havada kəndin ərazisindən hətta Murovdağın qarlı zirvəsini də seyr etmək mümkündür".

Qaxın zəngin tarixi vardır. Təəssüf ki, bir jurnal məqaləsində bu haqda geniş məlumat vermək qeyri-mümkündür. Odur ki, söhbətimizi bu yurdun xeyirxah, savadlı, mərd övladları ilə bağlı qeydlərlə yekunlaşdırmaq istəyirəm.

Qaxda elmin və xalqın təhsillənməsi uğrunda çalışan xeyriyyəçi, maarifçi xadimlərdən ADR parlamentinin üzvü Baba Qabulov, Qaxın qazısı olmuş Abdulla Əfəndi, İslam bəy Qabulov, Nəsib Məmmədzadə, İsa bəy Abakarov, Həmzətbəy Əfəndiyev, İbrahimxəlil Əfəndiyev, Şərif Əfəndiyev, Abdulhəşim Vahidzadə, ADR milli ordusunda zabit olmuş Həşim Əfəndiyev və milli ordunun tibb işçisi olan Cəlal Məmmədov kimi və adlarını çəkmədiyimiz onlarla başqa yaradıcı adamların həyat yolu bu gün hər bir Qaxlının qəlbini fərəh hissi ilə doldurur. 1941-1945-ci illər Böyük Vətən Müharibəsi dövründə müharibə başlanandan qurtarana kimi təkcə Qax ərazisindən 5000-ə qədər adam müharibəyə göndərilmiş və onlardan 3050 nəfəri döyüşlərdə həlak olmuşdur.

Qaxın igid oğullarından 22 nəfəri Berlinədək döyüş yolu keçərək, qələbədən sonra geri-Vətənə dönmüşlər. BVM-də Baydarlı kənd sakini Məmmədəli Məmmədov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Şəfi Poladov mayor rütbəsinədək yüksəlmiş, İsmayıl Rəsulov Boqdan Xmelnitski ordeni almışdır. İtaliya partizan hərəkatının iştirakçısı Məhəmməd Xudeynatov iki həftədə iki orden almış , David Andriaşvili və başqaları öz qəhrəmanlıqları ilə xalqın yaddaşına həmişəlik həkk olunmuşlar.

1978-ci ildə Sovet qoşunlarının Əfqanıstana müəmmalı müdaxiləsi ölkəmizə çox böyük maddi və mənəvi ziyan vurmuşdur. Onillik bu müharibə 18 min nəfərdən çox sovet vətəndaşının ölümünə səbəb olmuşdur. Əfqanıstan torpağında canından keçənlərə qardaşlıq, beynəlmiləlçi prinsipi aşılayırdılar. Qara Əfqanıstan yeli rayonumuzdan da yan keçməmişdir. Qax bu müharibəyə 59 oğlunu göndərmiş, onlardan 4 nəfəri ölmüş, bir nəfəri itkin düşmüş və iki nəfər ruhi xəstə olmuşdur.

1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edilmişdir. SSRİ adlı imperiyanın hələ ləğv olunmadığı bir vaxtda Azərbaycanın öz müstəqilliyini elan etməsi çox böyük nailiyyətdir. Qax sakinləri müstəqilliyimizin, suverenliyimizin qorunub möhkəmləndirilməsinə öz töhfələrini verməkdədirlər.

Təkcə qeyd etmək kifayətdir ki, öz ölümləri ilə "Ölməzlik" xariqələri yaradan, düşmənə layiqincə qan udduran 132 nəfərdən çox şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının gələcək nəsillərinə həmişə nümunə olacaqdır. Torpağına, yurduna bağlı olan yurddaşlarımızın bu vətənpərvərlik əməlləri yenicə Azərbaycan Silahlı Qüvvələrinə çağrılan gənclərə də nümunə olmalı, onları igidliyə səsləməlidir. Hər bir əsgər bilməlidir ki, lazım olan anda Vətən yolunda artıq əbədiyyətə qovuşmuş bu yurddaşlarımız kimi qəhrəmanlıqlar göstərməyi, qurban getməyi bacarmasalar, onda Azərbaycan xalqı da öz istiqlaliyyətini qoruyub saxlaya bilməz.

Əslən Qaşqaçaydan olan Cavanşir Rəhimov göstərdiyi igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı adı kimi yüksək ada, bir neçə döyüşçü isə ordenlərə layiq görülmüşdür.

Ölümündən sonra Qaşqaçay kənd mədəniyyət evi hazırda qəhrəmanın adını daşıyır. Onun adının əbədiləşdirilməsi üçün hələ bundan sonra çox işlər görüləcək. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında gənc Cavanşirin həyat yolu örnək olmalıdır.

**Bütün bunlar sahəsi 1494 kvadrat kilometr olan, bir şəhər və 60 kənddən ibarət olan Qax rayonunun tarixinin son dərəcə yığcam təsviridir. Rayonumuzun tarixilə bağlı daha geniş məlumat əldə etmək istəyənləri Qax Rayon Tarix-Diyarşünaslıq Muzeyinə dəvət edirik.**

**Tural**